# 2020-ci ilin yanvar ayında Azərbaycana gələnlərin sayı 18% artıb!

2020-ci ilin yanvar ayında Azərbaycana səfər etmiş xarici vətəndaşların sayı 2019-cu ilin yanvar ayı ilə müqayisədə 35 min və ya 18.1% artaraq 226 min nəfərə çatıb. Ən böyük artım, həm də ən çox səyahətçilərin gəldiyi Rusiya və Gürcüstandan müşahidə olunub. Belə ki, Rusiyadan gələnlərin sayı 12 min və ya 20.5% artaraq 68 minə, Gürcüstandan gələnlərin sayı isə 8 min və ya 14.6% artaraq 64 minə çatıb. Həm Yaxın Şərqdən, həm də Türkiyədən müvafiq olaraq 20.8% və 12.1% artımla hər birindən 24 min qonaq gəlib. Yaxın Şərq ölkələri arasında ən çox artım Səudiyyə Ərəbistanı (321.5% və ya 5 min artım) və Küveytdən (73.7% və ya 1.7 min artım) gələnlərin sayında müşahidə olunub. İrandan gələn səyahətçilərin sayı 2019-cu illə müqayisədə 3 min və ya 26.5% artaraq 13 min nəfər təşkil edib. Cənubi və Mərkəzi Asiyadan səyahət edənlərin sayı müvafiq olaraq 43% və 18.4% artaraq hər biri 8 minə çatıb. Əvvəlki aylarda olduğu kimi Cənubi Asiya region üzrə Hindistan (5 min; əhəmiyyətli artım 80.2%) və Pakistandan (3 min; artım 15.6%) gələn səyahətçilərin sayı üstünlük təşkil edir.

**Qrafik 1: 2020 və 2019-cu illər ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**




Nümayəndəliklərin təsis olunduğu ölkələrdən (Çin, Hindistan, Rusiya, Almaniya, Səudiyyə Ərəbistanı, BƏƏ) 2020-ci ilin yanvar ayında 87 min (18.5% artım) səyahətçi gəlib. BƏƏ nəzərə alınmadan nümayəndəlikləri olan ölkələrdən gələnlərin sayında 23.8% artım müşahidə olunub.

**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

**Cədvəl 1**: Müxtəlif ölkələrdən və regionlardan gələn xarici səyahətçilərin sayı, Yanvar 2020 və 2019.

| Region | 2020 | 2019 |
|---|---|---|
| | Yanvar | Yanvar |
| Rusiya | 67 884 | 56 339 |
| Gürcüstan | 63 824 | 55 685 |
| Yaxın Şərq | 24 617 | 20 375 |
| Türkiyə | 24 075 | 21 481 |
| İran | 13 076 | 10 336 |
| Cənubi Asiya | 8 388 | 5 865 |
| Mərkəzi Asiya | 7 833 | 6 615 |
| Şərqi Avropa | 6 351 | 5 351 |
| Qərbi Avropa | 5 210 | 5 138 |
| Şimal-şərqi Asiya | 1 765 | 1 235 |
| Amerika | 1 391 | 1 313 |
| Cənub Şərqi Asiya | 735 | 571 |
| Afrika | 611 | 765 |
| Digər | 405 | 355 |
| **TOPLAM** | **226 165** | **191 424** |